Kaspi 2020.- 7-10 mart.- S.15.



Ramiz Əliağa Vahid oğlu

Qadirəm mən yazmağa nazəndə canan hüsnünü,
Eyddə seyr edirəm şövq ilə qurban hüsnünü.

Gözləri qapqaradır məxmər tükü var ahının,
Necə tərif, təsvir etsin ovçu ceyran hüsnünü.

Zülfünün ətrin duyanlar neyləyirlər cənnəti,
Ətrdə üstün bilirlər zülfi-reyhan hüsnünü.

Qaş-gözün, kirpiklərin, xalın olubdur hərflər,
Gül üzün göstər cavan aşiqə quran hüsnünü.

Hərlənmir tər üzünün ətrafına pərvanə də,
Çox sevir pərvanələr şəmi-şəbüstan hüsnünü.

Üzün açılmış qızılgüldür sevir bülbül səni,
Gülzarında görüb bülbülü-nalan hüsnünü.

Bənzədirəm çöhrəni qönçə gülə rəssam kimi,
Görürəm zülfün içində mən ki, pünhan hüsnünü,

Matü heyran qaldı heyran qaldı görcək hüsnünü Rüstəmi-zal,
Çox sevib Təhminənin Rüstəmi-dəstan hüsnünü.

Eşqinə düşmüş müğənni hüsnün üçün oxuyur,
Tərif etmiş şövq ilə Ramiz süxəndan-hüsnünü.

* * *

Danlandı bu gülşəndə o gül bülbülün üstdə,
Bülbül qəmə düşməzdi uçursa gülün üstdə.

Şanə də çəkilməzdi bu canlı saça bil ki,
Ölməzdi bu dava o saçı sünbülün üstdə.

Aşiqə olub qismət həyat sürmək o yarla,
Möhkəm dayanıb yeni bina özülün üstə.

Eşqin ürəyinə gözəlin rəhmi salıbdır,
Məşuqənin eşqi böyüyür könülün üstdə.

Rəqib mənim ahımdan, inan künfəkün olmuş,
Yanmışdır ocaqda bu odun, bu külün üstdə.

Ömründə vətən əhlinə xoş baxmayıb əğyar,
Rəqib tutulubdur yenə acı dilin üstdə.

Əğyar çoxuna hey badalaq vurur usanmır,
Vardır günahı qurduğu fitnə-felin üstdə.

Ramiz, yazıçı kimi qəzəllər yaradırsan,
Sənsən bacaran hər bir işi müşkülün üstdə.

* * *

Bülbülüm, gül bu cahanda kimə yar olmalıdır,
Dedi: bülbül gülə ki, eşqə bahar olmalıdır.

Eşqə düşmüş gül olan yerdə cavan bülbüllər,
Aşiqin olduğu yerdə o nigar olmalıdır.

Fərəhindən hamının cuşa gəlir bülbüllər,
Yazda açan təzə güllər təzə bar olmalıdır.

Vətənin iqbalına göz yumur indi əğyar,
Rəqibin ruzigarı həmişə tar olmalıdır.

Yazda Ağdaş ilə Göyçay da çıxır aşikara,
Göyçay Ağdaş təzə heyva, təzə nar olmalıdır.

Axtarırlar qızılı dağda olan laylardan,
Ölkəmin hər tərəfi sərvətü-var olmalıdır.

Segah üstdə bu qəzəl çox oxunarsa böyüyər,
Oxuna segah əgər şurü qatar olmalıdır.
Müşk qandır çölə ahu göbəyindən düşəcək,
Xoş ətirli təzə-tər müşki-tatar olmalıdır.

Əsl şair qələmiylə yaradır növ qəzəli,
Dəsti-Ramiz bu qələmlərlə qabar olmalıdır.

* * *

Sevgili yar mənə ilham verir idi hanı bəs?
Təzə şərbətlə dolu canı verir idi hanı bəs?

Nazlı dilbərdi qızılgül kimi, bülbül mən özüm,
Aşiqə vəsli dilaram verir idi hanı bəs?

Sübhdən bülbülü bağ tək oxuyub gözləyirəm,
Mənə dadlı xörək axşam verir idi hanı bəs?

Az baxır nazlı nigar sadiq olan bəndəsinə,
Mənə öz könlümü tamam verir idi hanı bəs?

Cocuğa, körpəsinə yaxşıca ad istərdi,
Ay keçir körpəyə xoş nam verir idi hanı bəs?

Mən vəfalı eşiyəm yoxdu muradımı verən,
Mənə eşqində şirin kam verir idi hanı bəs?

Firqəti yandırır idi məni pərvanə kimi,
Gecə yandırmağa yar şam verir idi hanı bəs?

Novruz oldu mənə bayram payımı şanlamadı,
Yemək üçün mənə badam verir idi hanı bəs?

Ramiz, o şux öpüşüylə məni məstanə edib,
Aşiqə busanə bayram verir idi hanı bəs?

* * *

Ömrümdə görmürəm neçə müddət afəti,
Yarəbbə yetir mənə o gözələ məhəbbəti.

Qohum-əqrəba xeyir işə rövnəq verir müdat,
Özümlə yar üçün qururam bu ziyafəti.

Gördüm rəqibi bir neçə il axtarır hənək,
Dəyişməyib rəqibin o gerçək il qiyafəti.

Başında dedi-qoduya yer verməyir könül,
Yoxdur rəqibin aşiqə cüzi zarafəti.

Bir yara sevgi bəsləmək insafla məndədir,
Görüşürəm o yar ilə hər dəfə xəlvəti.

Artıq vətəndə rəqibi el saya salmayır,
Canan mənimdir bir kəsədir xoş səfaəti.

Əğyar ilə rəqib qocalıb xalqa xeyri var,
Əğyarın odur aşid ilə yox rəqabəti.

Gün, ay da keçdi il də keçir bax yavaş-yavaş,
Gündən-günə qocalmada yarın səxavəti.

Ramiz, həmişə yaz, yarat elə qəzəl gərək,
Artar həyat boyu qəzəbin qədir-qiyməti.

* * *

Aşiqə nələr oldun əziz, nazlı nigarım?
Dünyada heç oxşar sənə bir kəs niyə yarım?

Yar ayrılığı aşiqi möhtac edib öncə,
Keçmiş dəni ağlar göz ilə leylü naharım.

Əziz vətənin indi yazın yolunu gözlər,
Az qala gələ  qarşımıza tazə baharım.

Gündən-günə, aydan-aya ta hüsnü də artmış.
Xeyli gözəl olmuşdur, inan doğma diyarım.

Eşq atəşi ürəyində o mələkdən,
Axır mənə könül verəcəkdir gülüzarım.

Səyyadın dindən yerini dəyişəcəkdir,
Gülzarda nəğmə oxuyur bülbülü-zarım.

Ta sübhə kimi yanmadadır həyat işıq tək.
Kür çayı boyunca görüşür nur ilə narım.

Segah muğamında yenə şur ilə qatar var,
Sazəndə əlində oxuyur şövq ilə tarım.

Xanəndələrə verməliyəm söz oxusun yar,
Yazmaqdı qəzəl Ramiz ürəyində şüarım.

* * *

Aşiqə dedi yar niyə dildarla barışdın?
Dildar dedi aşıq nə üçün yarla barışdın?

Əvvəldə gözəl yar ilə biganə kimiydin,
Əğyar atıb ta yenə nigarla barışdın.

Sevib sevilən yar sarıdan arxayın oldun,
Sevdiyin o şux yari-diləfqarla barışdın.

Gülşəndəki güllər səsimin vurğunu idi,
Bir bülbül idin bağdakı gülzarla barışdın.

Nəğmə oxuyan bülbül idin gülləri sevdin,
Bir qönçə gül üstdə rəqibin xarla barışdın.

Mənsuru xilas etməyə çox cəhdlər etdin,
Həllac ki deyildin yenidən varla barışdın.

Çox mətin idin ömür uzunu bəxtəvər oldun,
Həmişə sənə bağlı vəfadarla barışdın.

Yurdun dolanırdın, vətəni istədiyinçün,
Canan kimi bir sadiq havadarla barışdın.

Mən ki, qəzəl ustadı yazıçıydın əzəldən,
Ramiz kimi bir dahi sənətkarla barışdın.